E- 1500

Azərbaycan Respublikası
Standartlaşdırma, Metrologiya və Patent üzrə
Dövlət Komitəsi
Apellyasiya şurasının
Qərarı

Azərbaycan Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə
Dövlət Komitəsinin
Apellyasiya şurası

Z.T.Hacıyevin sədrliyi ilə,
üzvlər– N.F.Nəsibova, R.N.Hüseynəliyev,

etiraz verən iddiaçı K.İ.Boguslavskaya /*ünvan: dom 1, ul. Bogataya, d. Matyushino, Laishevsky municipal district, RU-422624 Republic of Tatarstan (RU)* / nümayəndəsi patent müvəkkili M.Y.Qurbanovun iştirakı ilə,

Z.T.Hacıyevin məruzəsilə etiraz üzrə işə baxaraq müəyyən etdi:

08.08.2017 il tarixdə fiziki şəxs K.İ.Boguslavskaya məxsus "**БИОЛАН**" əmtəə nişanına aid 03-cü sinifin *"şampunlar; yuma, təmizləmə, ağardıcı preparatlar və yuma üçün digər maddələr"* əmtəələri üzrə 1284375 saylı beynəlxalq qeydiyyata alınmasına dair ekspertizanın 23.02.2017-ci il tarixli rədd qərarına qarşı iddiaçının nümayəndəsi patent müvəkkili M.Y.Qurbanov tərəfindən "Əmtəə nişanları və coğrafi göstəricilər haqqında" Azərbaycan Respublikası Qanununun 15-ci maddəsində nəzərdə tutulmuş əsaslara görə etiraz ərizəsi daxil olmuşdur.

Etirazda qeyd edilir ki, K.İ.Boguslavskaya (RU) bildirir ki, 1284375 saylı beynəlxalq qeydiyyatla Azərbaycan Respublikası ərazisinə şamil edilməklə verilmiş "**БИОЛАН**" əmtəə nişanının 03-cü sinif- "şampunlar; yuma, təmizləmə, ağardıcı preparatlar və yuma üçün digər maddələr" əmtəələri üzrə qeydiyyata alınmasının rədd edilməsi haqqında əmtəə nişanlarının ekspertizası sektorunun qərarı ilə razılaşmır və hesab edir ki, aşağıdakı əsaslara görə ləğv olunmalıdır.

“Ekspertiza” ilkin rədd qərarı verərkən “Əmtəə nişanları və coğrafi göstəricilər haqqında” Azərbaycan Respublikası Qanunun 6-cı maddəsinin (b) bəndinə əsaslanmışdır: “*Eyni və oxşar əmtəələrə və ya xidmətlərə aid başqa şəxsin adına Azərbaycan Respublikasının tərəfdar çıxdığı sazişlərə uyğun Azərbaycan Respublikasında daha əvvəl mühafizə edilən əmtəə nişanları ilə eyni olan və ya onlara qarışdırılacaq dərəcədə bənzər olan nişanlar əmtəə nişanı kimi qeydə alınmır”.*

Qeydiyyata rədd qərarında, “BIOPHA, Parc d'Activité Sud Loire*” /ünvanı: Bouffere, F-85612 MONTAIGU Cedex (FR)/* hüquqi şəxsin adına aşağıdakı əmtəə nişanı qarşı qoyulmuşdur.

| Əmtəə nişanı: | “BIOLANE” | “БИОЛАН” |
|---|---|---|
| Qeydiyyat No. | 892251 | 1284375 |
| Qeydiyyat tarixi: | 16.06.2006 | 17.11.2015 |
| Bazis qeydiyyatı. | FR, 23.09.2002, 02 3 184 863 | RU, 05.07.1993, 112237 |
| Bildiriş tarixi | 10.06.2010 | 12.08.2010 |
| Fəaliyyət müddəti: | 16.06.2026 | 17.11.2025 |
| Sahibi: | BIOPHA (FR) | K.İ.Boguslavskaya (RU) |
| 03-cü sinif: “Tualet ləvazimatları, vanna və duş üçün hellər, uşaq dəyişəkləri üçün maneə kremləri, üz və bədən üçün nəmləndirici kremlər, tualetdə istifadə üçün talk tozu, ətirləndirilmiş sular, ətirli su, tualet məqsədləri üçün yağlar, təmizləyici süd, badam yağı, əvvəlcədən təmizləyici süd hopdurulmuş, əlsilənlər; ətrriyyat, sabun, kosmetik yağlar, saç üçün lasyonlar, dişləri tmizləmək üçün vasitələr” | | “şampunlar;yuma, təmizləmə,ağardıcı preparat-lar və yuma üçün digər maddələr” |

K.İ.Boguslavskaya (RU) bildirir ki, “БИОЛАН” əmtəə nişanı 03-ci sinif üzrə on ildən daha əvvəl tarixli, ilkinliklə RU,05.07.1993, 112237 saylı bazis qeydiyyatı əsasında verilmişdir, Rusiya Federasiyasında qorunur. “БИОЛАН” əmtəə nişanı ilə 892251 saylı milli qeydiyyatla qorunan “BIOLANE” arasında səsli (fonetik), qrafik (görünüşlü) və məna ifadəli (semantik) fərqlər mövcuddur və onlar qarışdırılacaq dərəcədə oxşar deyildirlər.

“БИОЛАН” və “BIOLANE” əmtəə nişanlarının oxşar olmadığının müəyyən edilməsi üçün “Əmtəə nişanlarının qeydə alınması və ekspertizası qaydalarının” (sonralar “Qaydalar”) 29.6.1, 29.6.2, 29.6.3, 29.6.4 bəndlərinə əsasən <u>səsli (fonetik),</u> <u>qrafik (görünüşlü)</u> və <u>məna ifadəli (semantik)</u> cəhətdən həmin əmtəə nişanları oxşar deyildir. “БИОЛАН” altı hərfdən, iki hecadan “био-лан” ibarət olmaqla, yeddi hərfdən, üç hecadan “bio-la-ne” ibarət ibarət “BIOLANE” əmtəə nişanından, səslənmə üzrə iki hecası ilə fərqlənir və bu səslər eyni və qarışdırılacaq dərəcədə oxşar səs deyil, onların ahəngdarlığı və xarakterlərində fərqlər mövcuddur. Kiril əlifbası ilə xüsusi şriftlə böyük hərflərlə yazılmış, “БИОЛАН” sözü ilə və latın qrafikası ilə adi şriftlə, böyük hərflərlə yazılmış, “BIOLANE” görünüşcə fərqlənir və bu qarışdırılacaq dərəcədə oxşar deyil, fərqlər mövcuddur. “Qaydaların” mənaca oxşarlığı araşdırarkən, “БИОЛАН” ixtira edilmiş sözündən ibarət əmtəə nişanı ilə ixtira edilmiş “BIOLANE” əmtəə nişanıları mənaca da oxşar deyildirlər. “Qaydaların” 29.9.1, 29.9.2. bəndlərinə uyğunluğu araşdırarkən “БИОЛАН” əmtəə nişanı ilə mühafizə ediləcək 3-cü sinif əmtəələri ilə ”BIOLANE” əmtəə nişanı ilə mühafizə edilən 3-cü sinif əmtəələrdən fərqli olduğu aydın görünür.

| ”БИОЛАН” | ”BIOLANE” |
|---|---|
| Sinif:03- “şampunlar; yuma, təmizləmə, ağardıcı preparatlar yuma üçün digər maddələr” | “Tualet ləvazimatları, vanna və duş üçün hellər, uşaq dəyişəkləri üçün maneə kremləri, üz və bədən üçün nəmləndirici kremlər, tualetdə istifadə üçün talk tozu, ətirləndirilmiş sular, ətirli su, tualet məqsədləri üçün yağlar, təmizləyici süd, badam yağı, əvvəlcədən təmizləyici süd hopdurulmuş, əlsilənlər; ətrriyyat, sabun, kosmetik yağlar, saç üçün lasyonlar, dişləri tmizləmək üçün vasitələr” |

Beləliklə "БИОЛАН" əmtəə nişanı ilə "BIOLANE" əmtəə nişanı istər səs üzrə, istər görünüşcə, istərsə də mənaca fərqlərin mövcudluğu və onların qarışdırılacaq dərəcədə oxşar olmadığı sübuta yetirilir. K.İ.Boguslavskaya (RU) 1284375 saylı beynəlxalq qeydiyyatlı "БИОЛАН" əmtəə nişanına qarşı qoyulmuş 892251 saylı beynəlxalq qeydiyyatın "BIOLANE" əmtəə nişanının sahibi "BIOPHA, Parc d'Activité Sud Loire" (FR) hüquqi şəxsi arasında bu nişanların birgə fəaliyyəti barədə danışıqlar aparılır. Yuxarıda göstərilənləri nəzərə alaraq K.İ.Boguslavskaya (RU) tərəfindən 1284375 saylı beynəlxalq qeydiyyatla Azərbaycan Respublikası ərazisinə şamil edilməklə verilmiş "БИОЛАН" əmtəə nişanının 03-ci sinif əmtəələri üzrə qeydiyyata alınmasının rədd edilməsi haqqında 07.02.2017-ci il tarixdə alınmış ilkin rədd qərarının ləğv edilməsini "Əmtəə nişanları və coğrafi göstəricilər haqqında" Azərbaycan Respublikası Qanunun 14-cü və 15-ci maddəsinin müddəalarına əsaslanaraq, "БИОЛАН" əmtəə "Qanunun" 6-cı maddəsinin və "Qaydaların" 29.6.1, 29.6.2, 29.6.3, 29.6.4, 29.9.1 və 29.9.2. bəndlərinin tələblərini pozmadığını nəzərə alaraq "БИОЛАН" əmtəə nişanının 03-ci sinif: "şampunlar; yuma, təmizləmə, ağardıcı preparatlar və yuma üçün digər maddələr" əmtəələri üzrə 1284375 saylı beynəlxalq qeydiyyata hüququ bərpa etməklə mühafizə verilməsi ilə əlaqədar son qərarın "Əmtəə Nişanılarının Beynəlxalq Qeydiyyatı Haqqında Madrid Razılaşması və Protokolu üzrə Qaydalar"-a əsaslanaraq, ÜƏMT-ə (WIPO) göndərilməsini Apellyasiya şurasından xahiş etmişdir.

Apellyasiya şurasının iclası zamanı çıxış edən iddiaçının nümayəndəsi patent müvəkkili M.Y.Qurbanov bildirmişdir ki, K.İ.Boguslavskaya (RU) 128437 saylı beynəlxalq qeydiyyatla qarşı qoyulmuş 892251 saylı beynəlxalq qeydiyyatla 03 sinif: *"Tualet ləvazimatları, vanna və duş üçün hellər, uşaq dəyişəkləri üçün maneə kremləri, üz və bədən üçün nəmləndirici kremlər, tualetdə istifadə üçün talk tozu, ətirləndirilmiş sular, ətirli su, tualet məqsədləri üçün yağlar, təmizləyici süd, badam yağı, əvvəlcədən təmizləyici süd hopdurulmuş, əlsilənlər; ətrriyyat, sabun, kosmetik yağlar, saç üçün lasyonlar, dişləri təmizləmək üçün vasitələr"* əmtəələri üzrə qorunan – "BIOLANE" əmtəə nişanının sahibi "BIOPHA, Parc d'Activité Sud Loire" (FR) hüquqi şəxsi arasında bu nişanların birgə fəaliyyəti barədə danışıqlar aparılır. Belə ki, "БИОЛАН" əmtəə nişanının 03-ci sinifin əmtəələri *"şampunlar; yuma, təmizləmə, ağardıcı preparatlar və yuma üçün digər maddələr"* siyahısından *"şampunlar"* çıxarılmaqla qeydiyyata alınmasını xahiş etmişdir.

Apellyasiya şurası etiraz ərizəsinə baxaraq, etiraz üzrə məruzəni, etiraz edən patent müvəkkili M.Y.Qurbanovun çıxışını dinləyib, hesab edir ki, etiraz təmin olunmalıdır.

Apellyasiya şurası etiraza baxılma prosesində qeyd etdi ki, nişanların oxşarlığını müəyyən etmək üçün "Əmtəə nişanlarının qeydə alınması barədə iddia sənədinin verilməsi və ekspertizası Qaydaları"nın 29.6.1-ci "Sözlərdən ibarət nişanların (işarələrin) oxşarlığını müəyyən etmək üçün onlar müqayisə edilir", 29.6.2-ci "Səs üzrə (fonetik) oxşarlıq", 29.6.3-cü "Qrafiki (görünüşlü) oxşarlıq", 29.6.4-cü "Məna etibarı ilə", 29.9.1 ("Əmtəələrin və ya göstərilən xidmətlərin həmcins olmaları müəyyən edilərkən, bu əmtəələrin və ya göstərilən xidmətlərin eyni sahibkara məxsus olması barədə istehlakçıda yarana biləcək təsəvvürlər nəzərə alınır") və 29.9.2 ("Əmtəələrin və ya göstərilən xidmətlərin həmcins olması müəyyən edilərkən, xüsusən əmtəənin cinsi (növü) və ya göstərilən xidmətin xarakteri, onların təyinatı, əmtəənin hazırlanmış olduğu materialın növü, əmtəənin satışının və ya göstərilən xidmətlərin şərtləri, istehlakçıların dairəsi və digər şərtlər nəzərə alınır") bəndlərində göstərilən əlamətlər nəzərə alınmalıdır.

Apellyasiya şurası işi araşdıraraq müəyyən etdi ki, fiziki şəxs K.İ.Boguslavskaya tərəfindən "БИОЛАН" (1284375) adlı əmtəə nişanı 03-cü sinifin *(şampunlar; yuma, təmizləmə, ağardıcı preparatlar və yuma üçün digər maddələr)* əmtəələri üzrə 17.11.2015-ci il tarixdə beynəlxalq qeydiyyata alınmış və onun qeydiyyatı 31.03.2016-cı il tarixdə Azərbaycan Respublikasının ərazisinə şamil edilmişdir (2016/12 Gaz).

Ekspertiza "БИОЛАН" (1284375) adlı əmtəə nişanının qeydiyyata alınmasına dair rədd qərarını, Azərbaycan Respublikasında daha əvvəlki ilkinliyə malik olan 16.06.2006-cı il tarixində 03-cü sinif əmtəələri üzrə "BIOPHA, Parc d'Activité Sud Loire" /Bouffere" /ünvan: F-

85612 MONTAIGU Cedex (FR)/ adına qeydiyyata alınmış "BIOLANE" (892251) adlı əmtəə nişanına əsaslanaraq vermişdir.

İddiaçının nümayəndəsi, patent müvəkkili M.Y.Qurbanov "БИОЛАН" (1284375) adlı əmtəə nişanına aid 03-ci sinifin "şampunlar; yuma, təmizləmə, ağardıcı preparatlar və yuma üçün digər maddələr" əmtəələri siyahısından "şampunlar" çıxarılmaqla qeydiyyata alınmasını təklif etmişdir.

Apellyasiya şurası hesab edir ki, "БИОЛАН" (1284375) əmtəə nişanı 03-cü sinifin əmtəələri "şampunlar; yuma, təmizləmə, ağardıcı preparatlar və yuma üçün digər maddələr" siyahısından "şampunlar" çıxarılmaqla qeydiyyata alına bilər.

Əmtəə nişanının təyinatına uyğun olaraq onun əsas məqsədi bir sahibkarın əmtəələrini və ya göstərdiyi xidmətləri digər sahibkarın əmtəələrindən və ya göstərdiyi xidmətlərdən fərqləndirməkdən ibarətdir.

Şərh edilənlərə əsasən, "Əmtəə nişanlarının qeydə alınması barədə iddia sənədinin verilməsi və ekspertizası Qaydaları"nın 29.9.1-ci və 29.9.2-ci bəndlərini nəzərə alaraq, "Əmtəə nişanları və coğrafi göstəricilər haqqında" Azərbaycan Respublikası Qanununun 1-ci, 4-cü maddələrini və 6-cı maddəsinin "a" və "b" bəndlərini rəhbər tutaraq, Apellyasiya şurası

Qərara aldı:

1. "БИОЛАН" adlı əmtəə nişanınının 03-cü sinifin "şampunlar; yuma, təmizləmə, ağardıcı preparatlar və yuma üçün digər maddələr" əmtəələri üzrə 1284375 saylı beynəlxalq qeydiyyata alınmasına dair ekspertizanın 23.02.2017-ci il tarixli rədd qərarına qarşı iddiaçının nümayəndəsi patent müvəkkili M.Y.Qurbanov tərəfindən Apellyasiya şurasına verilmiş ərizə əsaslı hesab olunsun və təmin olunsun.
2. "БИОЛАН" adlı əmtəə nişanının 03-cü sinifin "şampunlar; yuma, təmizləmə, ağardıcı preparatlar və yuma üçün digər maddələr" əmtəələri üzrə 1284375 saylı beynəlxalq qeydiyyata alınmasına dair ekspertizanın 23.02.2017-ci il tarixli rədd qərarı ləğv edilmiş sayılsın.
3. "БИОЛАН" (1284375 saylı beynəlxalq qeydiyyat) adlı əmtəə nişanına aid 03-cü sinifin *"şampunlar; yuma, təmizləmə, ağardıcı preparatlar və yuma üçün digər maddələr"* əmtəələri siyahısından "şampunlar" çıxarılsın.
4. "БИОЛАН" adlı əmtəə nişanının 1284375 saylı beynəlxalq qeydiyyatı 03-cü sinifinə aid *"yuma, təmizləmə, ağardıcı preparatlar və yuma üçün digər maddələr"* əmtəələri ilə məhdudlaşdırılsın.
5. Qeyd olunanlara əsasən Beynəlxalq büroya müəyyən edilmiş qaydada məlumat göndərilsin.

Apellyasiya şurasının sədri Z.T.Hacıyev

Üzvləri: N.F.Nəsibova

R.N.Hüseynəliyev